# Azərbaycanla Pakistan arasında ekstradisiya və məhkumların verilməsi üzrə sıx əməkdaşlıq həyata keçirilir



Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov sentyabrın 4-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin ilə görüşüb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, F.Əhmədov Qasım Mohiuddini bu vəzifəyə təyin edilməsinə görə təbrik edib, diplomata gələcək fəaliyyətində uğurlar arzulayıb. Səmimi qəbula görə təşəkkür edən səfir Azərbaycanda özünü vətənindəki kimi hiss etdiyini bildirib.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın yüksək qiymətləndirildiyi, qarşılıqlı səfər və görüşlərin bütün sahələrdə əməkdaşlığın inkişafına töhfə verəcəyi qeyd olunub.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında hüquqi sahədə əlaqələrin inkişafından məmnunluq ifadə edilib, ekstradisiya və məhkumların verilməsi üzrə sıx əməkdaşlığın həyata keçirildiyi bildirilib. Həmçinin iyulun 11-də Prezident İlham Əliyevin Pakistana dövlət səfəri çərçivəsində imzalanmış və ötən günlərdə ölkə başçısının müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nun iki ölkə arasında hüquqi sahədə əməkdaşlığın genişləndirilməsinə və əlaqələrin dinamikasının artmasına təkan verəcəyi vurğulanıb.

Görüşdə hüquqi əməkdaşlığın gələcək perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

Azərbaycan.- 2024.- 5 sentyabr (№ 192).- S.2.